# "Şuşa - Qarabağın tacı, Qafqazın sənət məbədi, Türk dünyasının mədəniyyət paytaxtı"




***Azərbaycan Mədəniyyət Nazirliyi, Azərbaycanın Ankaradakı səfirliyi və TÜRKSOY-un təşkilatçılığı ilə Ankarada "Qarabağın tacı, Qafqazın incisi, Türk dünyasının mədəniyyət paytaxtı Şuşa" kitabının təqdimat mərasimi keçirilib.***

Türkiyə türkcəsində nəşr olunan, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri, professor, siyasi elmlər doktoru Elçin Əhmədovun müəllifi olduğu kitabda Azərbaycanın maarifçilik beşiyi və mədəniyyət mərkəzi olan Şuşanın tarixi, mədəni və strateji əhəmiyyətindən bəhs edilir.

TÜRKSOY-un Baş katibliyində təşkil olunan tədbirdə təşkilatın Baş katibi Sultan Raev 2022-ci il martın 31-də təşkilata üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında Şuşanın 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi haqqında qərar qəbul edildiyini xatırladıb. Onun sözlərinə görə, TÜRKSOY-un bu qərarı ilə əlaqədar Azərbaycanda və təşkilata üzv ölkələrdə uğurla həyata keçirilən silsilə tədbirlər Şuşanın Türk dünyasında geniş tanıdılmasında mühüm rol oynayıb.

Ölkəmizin Türkiyədəki səfiri Rəşad Məmmədov Prezident İlham Əliyevin Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq, 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncam imzaladığına diqqət çəkib: "İkinci Qarabağ müharibəsindən sonra qazanılan tarixi Qələbə, xüsusilə Azərbaycanın hərbi, diplomatik və informasiya məkanındakı uğurları nəticəsində yaranmış reallıqların beynəlxalq ictimaiyyətə çatdırılması olduqca zəruridir".



Tədbirdə çıxış edən Şuşada Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Elşad İskəndərov işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurmadan danışıb.

Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin nümayəndəsi Adbülsamet Taş, Azərbaycan Mədəniyyət Nazirliyinin şöbə müdiri Vasif Qurbanzadə və Ankara Hacı Bayram Veli Universitetinin Türk Dünyası Araşdırma Mərkəzinin müdiri Cəmilə Kınacı Baran Şuşa ilə bağlı fikirlərini bölüşüblər. Qeyd olunub ki, yeni kitab qədim və bənzərsiz Şuşanın, ümumilikdə Qarabağın tarixinin, mədəni və ictimai həyatının, o cümlədən bu diyarın maarifçi, həmçinin mədəniyyət, incəsənət və ictimai xadimlərinin TÜRKSOY-a üzv ölkələrdə daha yaxından tanınmasına imkan yaradacaq.

Kitabda Şuşanın işğalından əvvəlki tarixi yerləri və memarlıq abidələrinin fotoları yer alıb. Bununla yanaşı, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Şuşanın işğalı zamanı şəhərdə mədəni soyqırımı siyasəti, xüsusilə tarixi-memarlıq abidələrinin erməni vandalizminə məruz qalması da fotolarla diqqətə çatdırılıb. Həmçinin ilk dəfə olaraq qədim Şuşa qalasının işğaldan əvvəl, işğal vaxtı və işğaldan sonrakı dövrünü əks etdirən çoxsaylı fotoları izahlı şəkildə öz əksini tapıb.

Bununla yanaşı, kitabda dahi şəxsiyyət, görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin 1969-1982-ci illərdə Qarabağda milli ruhun yüksəldilməsi istiqamətindəki çoxşaxəli fəaliyyəti, xüsusilə Şuşaya zəngin tarixi abidə kimi qayğısı tarixi faktlar əsasında geniş tədqiq edilib.

Sonda azərbaycanlı musiqiçilərin ifasında Azərbaycan xalq mahnıları və muğamlardan nümunələr, TRT-nin Ankara Radiosu xorunun bədii rəhbəri və dirijoru, Azərbaycanın Xalq artisti Elnarə Kərimovanın rəhbərliyi ilə xor kollektivinin Qarabağla bağlı ifaları səsləndirilib.

Qeyd edək ki, "Şuşa-2023 TÜRKSOY rəssamlar görüşü" adlı rəsm və "Şuşa-2023 Türk dünyası paytaxtı" adlı fotosərgilərin də açılışı olub.






**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

Respublika.- 2025.- 3 avqust (№160).- S.10.